Səh. 2 Ağ daş – Azər Musaoğlu
Səh. 3 Məsuliyyət(sizlik) – Hacı Bəkiroğlu
Səh. 5 Xalça virusu – Borçalının toxunmuş tarixi
Səh. 6 Dastan yazan kənd: Darvaz – Esmira Ələkbərli
Səh. 2 Aşıq Hüseyn Saraçlı – Cəlal Yadigarlı
Səh. 4 PEŞƏ TƏHSİLİ PROQRAMLARINA QEYDİYYAT BAŞLAYIB
Səh. 7 Belə-belə işlər: Qalaktion Tabidze – Mirzə Məmmədoğlu

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MAY
2026-CI İL
№ 09 (249)

# Yeni YOL

*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

## SƏFİR: AZƏRBAYCAN SON 20 İLDƏ GÜRCÜSTANDA LAYİHƏLƏRİN İCRASINA 80 MİLYON DOLLARDAN ARTIQ MALİYYƏ AYIRIB




Prezident İlham Əliyev tərəfindən Gürcüstanda yaşayan soydaşlarımızın problemləri daim diqqət mərkəzində saxlanılıb, son 20 il ərzində sosial və infrastruktur layihələrinin icrasına 80 milyon dollardan artıq maliyyə vəsaiti ayrılıb, nəticədə onlarla məktəb, idman mərkəzləri, yollar, uşaq bağçaları və digər mühüm infrastruktur obyektləri inşa edilib.

Bunu Gürcüstanın Marneuli şəhərindəki Mədəniyyət Evində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbirdə çıxış edən Azərbaycanın bu ölkədəki səfiri Faiq Quliyev deyib.

O qeyd edib ki, Ulu Öndər Heydər Əliyev dövründən etibarən Gürcüstanda yaşayan soydaşlarımızın sosial rifahı daim diqqət mərkəzində saxlanılıb.

Diplomat bildirib ki, həmin dövrdə Azərbaycanın üzləşdiyi iqtisadi çətinliklərə baxmayaraq, Ulu Öndərin tapşırıqları əsasında Gürcüstanda yaşayan azərbaycanlıların sosial problemlərinin aradan qaldırılması istiqamətində mühüm layihələr həyata keçirilib.

Səfir vurğulayıb ki, sonrakı illərdə Azərbaycanın iqtisadi qüdrətinin artması ilə Prezident İlham Əliyev tərəfindən də soydaşlarımızın problemlərinə xüsusi diqqət göstərilib:

“Son 20 il ərzində Gürcüstanda yaşayan soydaşlarımız üçün sosial və infrastruktur layihələrinin həyata keçirilməsinə 80 milyon dollardan artıq vəsait ayrılıb. Nəticədə onlarla məktəb, idman mərkəzi, yol, uşaq bağçası və digər mühüm infrastruktur obyektləri inşa edilərək istifadəyə verilib”.

Faiq Quliyev qeyd edib ki, həyata keçirilən layihələr arasında strateji əhəmiyyət daşıyan təşəbbüslərdən biri də 2013-cü ildən tətbiq olunan tələbələrin illik təhsil haqqlarının ödənilməsi proqramıdır.

Diplomat çıxışında Heydər Əliyevin təşəbbüsü ilə reallaşdırılan transmilli enerji və nəqliyyat layihələrinin bu gün də regionun iqtisadi xəritəsini müəyyənləşdirdiyini diqqətə çatdırıb.

Onun sözlərinə görə, ümummilli lider Azərbaycan-Gürcüstan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin əsas memarlarından biri olub.

O həmçinin Azərbaycanın taleyüklü dövrlərində Gürcüstan dövlətinin və xalqının göstərdiyi dəstəyi yüksək qiymətləndirib, Gürcüstanda yaşayan soydaşlarımızın Azərbaycana mənəvi bağlılığının hər zaman xüsusi ehtiramla qarşılandığını bildirib.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ GENİŞLƏNDİRİLİR

Gürcüstan və Türkiyə arasında iqtisadi əməkdaşlıq genişləndirilir. Bu barədə Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili ilə Türkiyənin yeni təyin olunmuş səfiri Mustafa Türker Arının görüşündə bildirilib.

Görüşdə iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi və strateji tərəfdaşlığın daha da dərinləşdirilməsi məsələləri müzakirə olunub.

Qeyd edilib ki, Türkiyə Gürcüstanın əsas ticarət tərəfdaşıdır və iki ölkə arasında iqtisadi əməkdaşlıq ildən-ilə inkişaf edir. Bu dinamika həm investisi-



ya, həm də turizm sektorlarında özünü göstərir.

Tərəflər həmçinin nəqliyyat və enerji sahələrində əməkdaşlığın gücləndirilməsi imkanlarını nəzərdən keçiriblər. Bildirilib ki, bu istiqamətlər regionda iqtisadi inteqrasiyanın və enerji təhlükəsizliyinin artırılmasında mühüm rol oynayır.

## GÜRCÜSTANIN YENİ PATRİARXI ŞİO SEÇİLİB

Gürcüstan Pravoslav Kilsəsi yeni Katolikos-Patriarxını seçib. Senaki və Çxorotsku mitropoliti Şio (Elizbar Muciri) ölkənin 142-ci Katolikos-Patriarxı olub.

Səsvermə Tbilisidəki Müqəddəs Üçlük Kafedralında keçirilib. Səsvermə nəticəsində Mitropolit Şio 22 səslə bütün Gürcüstanın yeni Katalikos-Patriarxı seçilib. Səsvermədə Müqəddəs Sinodun bütün 39 üzvü iştirak edib.

Digər namizədlərə gəldikdə isə, Urbnisi və Ruisi yeparxiyasının mitropoliti Job 9 səs, Poti və Xobi mitropoliti Qriqol isə 7 səs alıb.

Qeyd edək ki, Gürcüstan Katolikos-Patriarxının seçilməsi proseduru



1995-ci ildə Svetitsxoveli Kafedralında keçirilən Gürcüstan Kilsəsinin XIII Genişləndirilmiş Şurasında qəbul edilmiş əsasnamə ilə tənzimlənir.

Bütün Gürcüstanın Katolikos-Patriarxı II İliya martın 17-də 93 yaşında vəfat edib. Onun vəfatı ilə əlaqədar ölkədə matəm elan olunub və matəm günləri dəfn mərasiminə qədər (22 mart) davam edib.



# AĞ DAŞ

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

Yapon ataları deyib: "Düyünün içindəki qara daşdan deyil, ağ daşdan qorxun". Yapon ataları düyünün içindəki ağ daşın gözdən yayınaraq qazana yol tapıb dişləri sındıra bilməsi kimi, öz içlərində olan müxənnətlərin də birliklərini sındıra bilməsindən ehtiyat etmələrini xəbərdar ediblər. Düyünün içindəki qara daşlar onsuz da bəllidir, görünür, gizlənə bilmir; ağ daş isə düyünün rəngində olsa da, xisləti başqadır.

Yaponlardan fərqli olaraq, biz düyümüzün içindəki ağ daşları deyil, qara daşları seçib atırıq, qara daşlardan qorxuruq, "daşdan yumşaq nə var gətir" deyib yeyirik. Elə buna görə də aşımız daş aşına dönüb, dişimizin arasında düyü deyil, daş xırçıldayır, yediyimiz ağıya dönür. Aşımız daş çıxanda isə artıq gec olur, daldan atılan daş topuğa dəyir. Gözümüzdən yayınan ağ daşlar yığılaraq başımıza bəla olur, daş yağır başımıza.

Artıq kələfimiz elə dolaşıb ki, ağı qaradan seçə bilmirik. Daşlar təkcə düyümüzdə yox, mərciməyimizdə, lobyamızda, noxudumuzda, arpa-buğdamızda da rəng altında gizlənə bilir – buqələmun kimi. Daşın kim tərəfindən, haradan atıldığını bilmək, öyrənmək əvəzinə, düyümüzdən çıxan daşları kimə, haraya atacağımızı dərd edirik, göyə daş atıb başımızı tuturuq.

Biz daş oluruq, qəlbimiz daşa da dönür, amma biz vətənDAŞ ola bilmirik, biz soyDAŞ ola bilmirik, biz dilDAŞ ola bilmirik, biz dinDAŞ ola bilmirik, biz yolDAŞ ola bilmirik, biz sirDAŞ ola bilmirik, biz qarDAŞ ola bilmirik, biz əməkDAŞ ola bilmirik... Olsa-olsa sağ ikən düyümüzün içində ağ daş oluruq, öləndən sonra da başdaşı oluruq. Çünki biz çox unutqanıq, yadDAŞımız balıq yaddaşıdır. Nə qədər ki, yaddaş əvəzinə ağ düyüdə yad daş olacağıq, dişlərimiz sınacaq. İşlərimiz düz getməyəcək.

Kimin daş, kimin düyü olduğu bilinməyən bir zamanda dəli yadına daş salmaq külüngü daşa vurmaqdır, bilirəm. Düyüdəki qara daşları seçib atmağa da gərək yoxdur. Qara daş bişəndə də rəngini dəyişməyəcək, elə qaşıqda da özünü mərdanə göstərəcək. Düyünün içindəki qara daşlardan qorxa-qorxa, qara daşlardan ehtiyatlana-ehtiyatlana, qara daşları arıtlaya-arıtlaya ağ daşları tamam unutmuşuq, rənginə aldanmışıq.

Ağ rəng adətən məsumiyyətin, təmizliyin, saflığın rəmzi olsa da, düyünün içindəki ağ daş heç də məsum, təmiz, saf deyil; müxənnətdir, namərddir, xaindir... Ağ rəngə aldanmamalıyıq. Rənginin ağlığından istifadə edərək düyünün arasına soxulan daşları görməliyik, tanımalıyıq, ifşa etməliyik.

Daş düyü boyda olsa da dişlərimizi elə öz çənəmizin gücü ilə sındırar. Bizi içimizdən yeyən qurdun balacalığına arxayın olmamalıyıq. Düyünün içindəki ağ daşları arıtlamalıyıq əvvəlcə... O ağ daşları ki, dili dilimizdəndir, dini dinimizdəndir, amma zatı xarabdır, BİZi MƏN edərək parçalamağa çalışırlar, BİZə xəyanət edirlər, BİZi ONLARın ayağına verirlər, satırlar, şərləyirlər, tutdururlar, sapdırırlar, əyirlər, sındırırlar; bizi də özləri kimi düyünün içində ağ daşa çevirirlər, bir də ayılırıq ki, aşımız daş çıxıb...

# AŞIQ HÜSEYN SARAÇLI



Hər bölgəni tanıdan, mədəniyyətini xarakterizə edən bir vasitə olur. Əzəldən Borçalını tanıdan da saz-söz olub. Kimin yanında Borçalı deyilsə ilk ağlına meydanlar titrədən sədəfli saz, qüdrəti qılıncdan kəskin olan söz və öz sanbalı, ərdəmi, yerişi-duruşu ilə seçilən böyük ozanlar gəlir. Dədəmiz Qorquddan bu yana saz türk soyunun yoldaşı, sirdaşı olub. Cəngdə, toyda, qəmdə saz bizim ruhumuzun kökünə köklənib. Saz elə bir unikal alətdir ki, sanki insanın halını duyur və hisslərini pərdə-pərdə dilləndirir. İftixar vericidir ki, Borçalı Dədə Qorqudun yadigarı olan sazımızın, saz üstündəki havacatlarımızın qorunmasında, inkişafında və əsrdən-əsrə, nəsildən nəslə ötürülməsində böyük rol oynayıb. Hətta deyə bilərik ki, klassik sazımızın bu günə çatması məhz elə Borçalı aşıqlarının adı ilə bağlıdır. Belə bir yurdun övladı olmaq insanın qarşısına böyük məsuliyyətlər qoyur. Düşünən insanı vadar edir ki, bu cür faktların dərinliyinə ensin. Borçalı aşıq məktəbini yaxından tanımaq, yaşatmaq, təbliğ etmək bir tərəfdən də hər birimizin borcudur. Bu borcu bizim çiyinlərimizə yaşadığımız torpaq, içdiyimiz su qoyur. Bu sənət bizim mənəvi sərvətimizdir.

Borçalı aşıq məktəbi çox ozanlar yetirib. Bu il ustad ozan, Borçalı Dədə Qorqudu aşıq Hüseyn Saraçlının anadan olmasının 110 illiyi olduğu üçün istəyirəm onun yaradıcılığından və Borçalı aşıq məktəbinə verdiyi misilsiz töhfələrdən danışam. İnanmıram ki, Borçalıda Hüseyn Saraçlının adını eşitməyən olsun. Nəinki Borçalıda, bütün türk dünyasında Hüseyn Saraçlı hələ öz sağlığında şöhrət qazanmış bir sənətkardır. Gürcüstanın yeganə "əməkdar mədəniyyət işçisi" statusunu qazanmış aşıq Hüseyn Saraçlıdır.

Hüseyn Saraçlı 15 aprel 1916-cı ildə qədim-qaim Borçalı mahalının ağır ellərindən olan Saraçlı kəndində, Koxallı tayfasından Qurban kişinin ailəsində dünyaya göz açıb. Qurban kişi el arasında sayılıb-seçilən adam idi və ağa nəslindən idi. Müstəqil Gürcüstan dövləti qurulduqdan sonra Saraçlıda ilk məktəbin bünövrəsini də elə Qurban kişi atmışdı. 1919-cu ildə Qurban kişi Sosial-Demokratlar partiyasından Borçalı mahalı bələdiyyə məclisinə deputat seçilmişdi. Dövrün çətinlikləri Hüseyn Saraçlının həyatında da böyük izlər, ağrı-acılar qoyub. 1921-ci ildə Gürcüstanda Sovet hakimiyyəti qurulduqda Qurban kişinin mal-dövləti də müsadirə olunur. Zamanında ağa ailəsi olan bu ailə indi kasıblıqla mübarizə aparmalı olur. Balaca Hüseyni atası kənd mədrəsəsində mollanın yanına təhsil almağa qoysa da Hüseyn aşıqlığa meyil salır və mollaxanadan qaçaraq aşıq İsmayıl Saraçlının yanına gedir. At quyruğunu taxta üzərinə bağlayaraq çalıb-oxumağa başlayır. Atası başdan Hüseynin aşıq olmasına razı olmasa da, sonradan onun aşıq İsmayılın yanına getməsinə icazə verir.

1931-ci il 15 aprel günü (Hüseyn Saraçlının doğum günü) kəndə Kolxoz qurmaq adı ilə gələnlər "pantürkist" damğası ilə 16 yaşlı Hüseynin gözləri önündə atası Qurban kişini güllələyirlər. Bu gündən sonra Hüseyn Saraçlının ağır günləri başlayır. Öz səs yazılarında ustad belə deyir: "Adam var dəmdən aşıq olur, adam da var qəmdən aşıq olur, mən qəmdən aşıq olmuşam". Bəlkə də bu ağrılı günlər Hüseyn Saraçlının istedadını oyatmaq üçün İlahidən göndərilən bir vəsilə idi. Bəzən insan çətinliyə düşəndə öz istedadını kəşf edir və bəzi istedadlar elə çətinlik zamanı yaranır. Qurban kişini güllələyənlər aşıq İsmayılı da həbs edirlər. Hüseyn Saraçlı həm atasını, həm də ustadını itirir. Qurban kişinin yeddi oğlu var idi. Onun ailəsinin ağırlığı bacısının üstünə düşmüşdü. Qohumları Hüseyni aşıq Quşçu İbrahimin yanına şəyirdliyə qoyurlar. 1933-cü ildən Hüseyn Saraçlı öz ustadı ilə məclislərdə iştirak edir. Saraçlı şair Hüseynə, Faxralı şair Nəbiyə, şair Ağacana saz tutur və Faxralı aşıq Sarvan Bayramdan da dərs alır. 1937-ci ildən Hüseyn Saraçlı tam püxtələşmiş sənətkar kimi yarışmalara qatılır, məclislər idarə edir, medallar qazanır. Çox tez bir vaxtda Hüseyn Saraçlının şöhrəti bütün Borçalıya və türk dünyasına yayılır. 1941-ci ildə Böyük Vətən müharibəsi başlayanda Hüseyn Saraçlını sənətkardır deyə cəbhəyə aparmasalar da, Zop kəndindəki mərmər karxanasına işləməyə göndərirlər. Qardaşlarını isə cəbhəyə aparırlar.

Hüseyn Saraçlı Azərbaycan aşıq sənətində öz dəsti-xətti və xidmətləri ilə seçilən sənətkardır. Onda gerçək ozan siması olub. Hüseyn Saraçlını fərqləndirən əsas xüsusiyyəti onun mahir şəkildə dastan danışması olub. Bütün dastanları bilib və danışıb. Klassik havaların qorunub-saxlanılaraq gənc nəsillərə ötürülməsində də onun əməyi danılmazdır. Deməli olar ki, bütün havaları ifa edərək lentə yazdırıb. Bu gün biz onun çalıb-oxuduğu havaları, danışdığı dastanları dinləyə bilirik. Koroğlu dastanlarını danışanda sanki özü Koroğlu obrazına girir, Kərəmi danışanda Kərəm kimi alışıb yanır. Ustad Hüseyn Saraçlı Borçalı ləhcəsini də bütün dinləyicilərinə sevdirmişdi. Onun şirin ləhcəsi hamını valeh edərmiş. Azərbaycanda çəkilmiş "Tütək səsi" "Firəngiz", "Ələsgər", "Nəğməkar torpaq", "Uzun ömrün akkordları" və Gürcüstanda çəkilən "İlk baxışdan məhəbbət" filmlərində yer alıb. "Tütək səsi" filmində ifa etdiyi "Ruhani" bu gün də bütün türk dünyasında məşhurdur.

Aşıq Hüseyn Saraçlının Borçalı aşıq məktəbinin formalaşmasında, təkamülündə böyük əməyi var.

*Mənbə: Hüseyn Saraçlı irsinin fədakar tədqiqatçısı Rəşad Saraçlının araşdırmaları.*

***Cəlal Yadigarlı***
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi*

# "TİKTOK" NƏSLİNİN GİZLİ YORĞUNLUĞU



Yaşadığımız dövrdə hər şey çox sürətlə dəyişir. Artıq heç kim kitab oxumur, o kitabı başqaları ilə müzakirə etmir, bildiyini başqası ilə paylaşmır. Əvvəllər saatlarla danışılan mövzular indi cəmi otuz saniyəlik videolara sığışdırılır. Hətta xəbərləri belə uzun qəzet və məqalələrdən deyil, bir neçə saniyəlik videolardan öyrənirlər.

Beləcə sosial şəbəkələrə maraq və tələbat artır. Xüsusilə də "TikTok" kimi platformalar. Bu platformalar insanlar arasında yeni bir həyat tərzi formalaşdırır. Bununla yanaşı, sosial şəbəkələr insanlara əyləncə, populyarlıq və sürətli informasiya təqdim etsə də, eyni zamanda görünməyən bir yorğunluq da gətirir.

Bu gün bir çox insanın diqqəti dağınıqdır, səbirsizdir və daxili olaraq özünü tükənmiş hiss edir. Buna görə də "TikTok nəsli" ifadəsi sadəcə sosial şəbəkə istifadəçilərini deyil, sürətli yaşamağa çalışan bir nəsli də ifadə edir.

"TikTok" platformasının insan həyatına ən böyük təsirlərindən biri, getdikcə hər kəsin diqqət müddətinin azalmasıdır. İnsan beyni davamlı şəkildə qısa videolara alışır və uzunmüddətli heç bir işə yönələ bilmir.

Bir çox insan mütaliə edərkən, dərs hazırlayarkən və ya ciddi bir mövzu haqqında düşünərkən tez sıxılır. Çünki onların beyni daima sürətli görüntülərə, dəyişən kadrlara və saniyələr içində gələn yeni məlumatlara öyrəşir. Nəticədə, insanlar həyatın normal axarını belə darıxdırıcı hesab etməyə başlayırlar.

"TikTok" nəsli sürətli həyatı sevir. Çünki hər şey bir toxunuş qədər yaxındır. Bu sürət bir müddət sonra insanların duyğularına da təsir edir. İnsanlar artıq gözləməyə öyrəşmir. Hər şeydən tez sıxılır, tez bezir və "nə olacaqsa dərhal olsun" istəyir. Halbuki həyat sosial şəbəkə videoları kimi deyil. Həyatda uğur qazanmaq, münasibət qurmaq, insanı tanımaq, özünü inkişaf etdirmək zaman və səbir tələb edir.

Sürətə alışmış bir insan isə səbir göstərməkdə çətinlik çəkir. Ona görə dostluqlar saxta, sevgilər yalan olur. Çünki yaranan münasibətləri də "TikTok" videoları kimi qısa yaşamaq istəyirlər. Münasibət qurduğu şəxsə vaxt ayırmaq, bərabər keyfiyyətli zaman keçirmək – bütün bunlar "TikTok" nəslinə uzaq anlayışlardır.

Ən təhlükəli tərəflərindən biri də insanların tək qalmaqdan qorxmağa başlamasıdır. Bir çox insan sakitlik içində otura bilmir. Telefon əlindən düşən anda özünü boşluqda hiss edir. Çünki sosial şəbəkə artıq sadəcə əyləncə vasitəsi deyil, insanların reallıqdan qaçış yerinə çevrilib. İnsan yorulduğunu hiss etsə belə, dayanmaq əvəzinə daha çox video izləyir. Bu isə həm zehni, həm də emosional yorğunluğu artırır.

Müasir dövrdə insanlar fiziki olaraq deyil, daha çox psixoloji olaraq yorulurlar. Daim nəyəsə çatmağa çalışmaq, geri qalmamaq qorxusu, sosial şəbəkədə görünmək istəyi insanları içdən-içə çox yorur. Ən qəribəsi isə budur ki, bir çox insan yorğun olduğunu başa düşür, amma bu sürətli həyatın içindən çıxa bilmir. Çünki artıq bu sürət normal həyat kimi qəbul olunur.

"TikTok" nəsli sürətli yaşayan, amma daxildə yorulan bir nəsildir. Onlar hər gün yüzlərlə görüntü görür, minlərlə məlumat qəbul edir, amma bəzən öz daxili səslərini eşitməyi unudurlar. Həyatın həqiqi gözəlliyi isə sürətdə deyil, bəzi anları hiss edərək yaşamaqdadır. İnsan bəzən dayanmalı, telefondan uzaqlaşmalı və öz ruhunun səsini dinləməyi bacarmalıdır. Çünki ən böyük yorğunluq bədənin deyil, ruhun yorğunluğudur.

Nəticə olaraq, problem texnologiyanın və ya sosial şəbəkənin özündə deyil. Problem insanların həyatla texnologiya arasındakı ölçünü itirməsindədir. Sosial şəbəkələr düzgün istifadə ediləndə faydalı ola bilər. İnsan həm məlumat ala, həm də özünü inkişaf etdirə bilər. Lakin həyat yalnız ekranlardan ibarət olduqda insan zamanla öz hisslərindən, düşüncələrindən və hətta özündən uzaqlaşmağa başlayır.

Unutmayaq ki, texnologiya insan həyatını asanlaşdırmaq üçün yaradılıb, insanı həyatdan uzaqlaşdırmaq üçün yox. Həqiqi xoşbəxtlik bir ekranın içində deyil; sevdiklərinlə edilən səmimi söhbətdə, hiss edilən duyğularda, yaşanan anlarda gizlidir. Çünki həyat paylaşmaq üçün çəkilən şəkillərdən deyil, həqiqətən yaşanan anlardan ibarətdir.

**Afaq Azər**
*Yazıçı*

# MƏSULİYYƏT(SİZLİK)



Hacı Bəkiroğlu
haci-bekiroglu@hotmail.com

"Məsuliyyət – sadəcə verilən tapşırığı icra etmək deyil, atılan hər addımın, deyilən hər sözün və tutulan hər yolun sonunu görə bilmək bacarığıdır. O, azadlığın ən ağır şərti, insan olmağın isə ilk qaydasıdır". Bu cümlələr axtarış etdiyim bir neçə mənbənin və fikrinə baş vurduğum bir neçə ağsaqqalın və elm əhlinin vermiş olduğu ortaq nəticədir. Əgər bir cəmiyyətdə məsuliyyət hissi yoxdursa o cəmiyyətdə təhlükə baş qaldırmışdır deməkdir. Çünki məsuliyyətsizliyin bədəli çox vaxt sadəcə peşmançılıqla bitmir, hətta bərpası mümkün olmayan həyatlarla ödənilir.

Son zamanlar bölgəmizdən gələn xəbərlər ürəyimizi dağlayır. Artıq demək olar ki, hər açılan səhər yeni bir qəza, vaxtsız qırılan bir ömür və yarımçıq qalan arzuların xəbərçisinə çevrilib. İtirdiyimiz hər gənc, əslində, gələcəyimizdən qoparılan bir parçadır. Bəs bu faciələrin əsl səbəbi nədir? Tale, qismət, yoxsa sadəcə bir anlıq məsuliyyətsizlik?

Sükan arxasına keçən bəzi gənclərimiz üçün avtomobil idarə etmək sanki bir həyat tərzindən çox bir əyləncə növünə çevrilib. Sürət həvəsi, "mənə bir şey olmaz" arxayınlığı və o dəmir parçasını idarə edərkən nümayiş etdirilən süni cəsarət... Təəssüf ki, o yollarda sınanan təkcə sürət deyil, həm də başqalarının yaşamaq haqqıdır. Bir anlıq adrenalin hissi bir ömürlük peşmanlığa, sönən çıraqlara və qara geyinən anaların göz yaşlarına dəyirmi?

Məsələ təkcə yollarla da bitmir. Biz həyatın hər sahəsində o "sizlik" hissindən xilas ola bilmirik. İmtahana hazırlaşan tələbənin laqeydliyindən tutmuş, işinə barmaqarası baxan mütəxəssisə qədər, məktəbdə dərs keçməsi lazım olan müəllimin şagirdlərlə hədiyyə davasına qalxmasına qədər, hər yerdə eyni boşluq var. Məsuliyyət – insanın həm özü, həm də ətrafı qarşısında çəkməli olduğu ən ağır, amma ən şərəfli yükdür. Bu yükü çiyinlərimizdən yerə endirdiyimiz an cəmiyyət olaraq uçuruma doğru yuvarlanırıq.

Burada ən böyük pay isə valideynlərin üzərinə düşür. Hələ on səkkiz yaşına çatmamış övladına bahalı avtomobil almaqla, onun hər istəyini yerinə yetirməklə valideynlik borcu bitmir. Əksinə, əsl məsuliyyət o gəncin ruhuna "ehtiyat" və "hörmət" hissini aşılamaqdadır. Övladının hara getdiyini, kiminlə olduğunu, o sükanın arxasında özünü necə apardığını sorğulamayan hər bir valideyn fərqində olmadan o qəzaların görünməz iştirakçısına çevrilir. Tərbiyə təkcə nəsihət vermək deyil, həm də övlada həyatın bir oyun olmadığını anlatmaqdır.

Gəlin etiraf edək: Məsuliyyət hissi itəndə yerini bədbəxtliklər doldurur. Nə qədər ki, "məsuliyyətsizlik" xəstəliyindən özümüzü sağaltmayacağıq, yollarımızdan qan, evlərimizdən fəryad əskik olmayacaq. Hər birimiz – istər gənc, istər valideyn – addımımızı atarkən bir anlıq dayanıb düşünməliyik: Bu gün etdiyim hərəkət sabah kiminsə sonu ola bilərmi?

Gəlin məsuliyyətimizi mötərizədən çıxaraq. Çünki həyat mötərizəyə sığmayacaq qədər dəyərlidir.

Sonda hər zaman hörmətini saxladığım bir müəllimimin heç vaxt unutmayacağım bir cümləsi ilə nöqtəni qoymaq istəyirəm: "Unutmayın ki, məsuliyyətsiz adam əxlaqsız adamdır".

# "BU ADDIMLAR İBTİDAİ PİLLƏNİN SAAT YÜKÜ PROBLEMİNİ HƏLL ETMİR" – TƏHSİL NAZİRLİYİNİN YUMŞALDILMIŞ SİYASƏTİNƏ PEDAQOQUN CAVABI



**8 may tarixində məlum oldu ki, Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyi müəyyən güzəştlərə gedib və kompetensiyası təsdiq olunmuş müəllimlərin pillələrə uyğun tədris aparması, bunun nəticəsində də pedaqoqun tam əməkhaqqı alması imkanı ilə bağlı siyasəti müəyyən dərəcədə yumşaldıb.**

***Konkret olaraq:***

***VII-XII siniflər üzrə gürcü dili və ədəbiyyatı və/və ya riyaziyyat fənlərindən kompetensiyası təsdiq olunmuş müəllimlərə sözügedən fənləri V-VI siniflərdə tədris etmək hüququ veriləcək və onlara təsdiq edilmiş kompetensiyaya uyğun əməkhaqqı ödəniləcək.***

***Sistemdə I-VI siniflərin gürcü dili və ədəbiyyatı ilə riyaziyyat fənləri üzrə fənn kompetensiyasının təsdiqi imtahanı mövcud olduğu üçün, V-VI siniflərdə sözügedən fənlərin saatları ilk növbədə I-VI siniflərdə tədris hüququ olan müəllimlər arasında bölüşdürüləcəkdir.***

***Gürcüstanda qüvvədə olan qanunvericiliyə əsasən, "Bizim Gürcüstan" (V-VI siniflər) və "Mən və cəmiyyət" (III-IV siniflər) fənləri ictimai elmlər fənn qrupuna aiddir. Müvafiq olaraq, 2026-2027-ci tədris ilindən etibarən, təsdiq edilmiş kompetensiyaya uyğun əməkhaqqı ödənilməklə, sözügedən fənləri tədris etmək imkanı tarix, coğrafiya və ya "Vətəndaş təhsili" üzrə tədris hüququ qazanmış müəllimlərə veriləcəkdir.***

***Həmçinin, 2026-2027-ci tədris ilindən etibarən, təsdiq edilmiş kompetensiyaya uyğun əməkhaqqı ödənilməklə, "Mən və cəmiyyət" fənnini tədris etmək imkanı gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər) fənlərini kombinə edilmiş şəkildə tədris etmək hüququ qazanmış müəllimlərə də veriləcəkdir.***

***İbtidai sinif müəllimi, Milli Müəllim Mükafatının qalibi Natia Uçava hesab edir ki, bu kiçik addımlar, əlbəttə, çox yaxşıdır. Ancaq bəzi problemlər yenə də qalmaqdadır.***

***O, ibtidai pillə məsələsinə diqqət yetirir. Konkret olaraq isə, pedaqoqlar üçün "Mən və cəmiyyət"i tədris etməyən, saat yükü olmayan 1-2-ci sinif müəlliminin vəziyyətinin necə olacağı aydın deyil. Eləcə də incəsənət fənnində nə baş verəcəyi ilə maraqlanır və bildirir ki, fiziki olaraq yüksək saat yükü olmayan, əməkhaqqı saat yükünə bağlı olan ibtidai sinif müəllimi isə eyni vəziyyətdə qalır. Pedaqoq qeyd edir ki, əlavə dayandırıldıqdan sonra müəllimin böyük qisminin əməkhaqqı azaldılacaqdır.***

**– Siz bir ibtidai sinif müəllimi kimi bu dəyişikliyi necə qiymətləndirirsiniz, nə düzəlib?**

– İlk növbədə, qeyd edilməlidir ki, müəllimlərin əməkhaqqı ilə bağlı yeni qayda birmənalı şəkildə önə atılmış addımdır. Müsbət haldır, ancaq bu dəyişikliyi qiymətləndirən zaman iki vəziyyət yaranır. Doğrudur, müəyyən addımlar atılıb, ancaq bu ibtidai pillənin əsas saat yükü problemini həll etmir. Dəyişiklik yalnız 3-cü və 4-cü sinifdə tədris edən müəllimlərin vəziyyətini qismən yüngülləşdirir. "Mən və cəmiyyət" fənninin əlavə edilməsi onlara imkan verir ki, az da olsa saat çatışmazlığını doldursunlar. Bu, az da olsa maddi baxımdan qurtuluşdur. Problem odur ki, bu fənn yalnız 3-cü və 4-cü siniflərdə tədris olunur. Müvafiq olaraq, müəyyən səbəblə bu fənni götürə bilməyən müəllimlər üçün saat çatışmazlığı yenə də dəyişməz qalır. Onlar yenə də minimal saat və aşağı əməkhaqqı almalı olurlar.

**– İbtidai sinif müəllimləri üçün hansı problemlər qalır?**

– Sərəncamın müsbət tərəflərinə baxmayaraq, ibtidai pillə müəllimləri üçün bir neçə kritik problem yenə həll olunmadan qalır:

Statusun dəyərsizləşməsi və itirilmiş motivasiya: Müəllim üçün aparıcı və mentor müəllim statusu qazanmaq zəhmətlə başa gəlir. Onların qiymətləndirilməsi mexanizmi qeyri-müəyyən olaraq qalır. Statusun əlavəsi itəndə peşəkar inkişaf üçün motivasiya da itir. Təbiidir ki, məntiqi sual yaranır: ***"Nəyə görə əziyyət çəkdik?".*** İbtidai siniflərdə 13-15 saatlıq işləmək, emosional və fiziki yük, yuxarı pillənin tam qrafikinə (18 saat) qeyri-bərabərlik. Bu həddin olmaması ibtidai sinif müəllimini daim uduzmuş vəziyyətdə qoyur.

Eləcə də ibtidai sinif müəlliminin incəsənəti tədris etmək hüququnun məhdudlaşdırılması da problemdir. Bu ciddi bir maneədir. Onlardan elə fənn imtahanları istəyirlər ki, proqram, ümumiyyətlə, ibtidai pillə metodologiyasından kənara çıxıb və yuxarı siniflərin spesifikasına istiqamətlənib.

Sinif rəhbərinin əməkhaqqı da mühüm məsələdir. Müəllimin valideynlə ünsiyyətə, sinfin idarəsinə və şagirdlərin şəxsi inkişafına sərf etdiyi böyük resurs yenə də saat yükündə tanınmır, yalnız simvolik əməkhaqqı olaraq qalır.

**– Hələ də aydın olmayan və həll edilməli olan məsələlər nədir və Nazirlik tam ədaləti təmin etmək üçün əlavə olaraq nə etməlidir?**

– Mövcud sistem ibtidai pillənin spesifikasını nəzərə almır. Burada saat sayı fiziki olaraq məhduddur. Rəsmi olaraq müəyyən edilsin ki, ibtidai pillədə 13 saatlıq həftə yükü əməkhaqqı baxımından tam qrafikə (18 saata) bərabər olsun.

Sinif rəhbərinin işi hələ də sistemin "görünməz" bir hissəsi olaraq qalır və yalnız simvolik əlavə ilə qiymətləndirilir. Sinif rəhbərliyi müəllimin iş qrafikində real iş yükü kimi əks olunmalı və görülən böyük iş üçün uyğun və layiqli əməkhaqqı ilə təmin edilməlidir.

Müəllimlər arasında haqlı narahatlıq doğuran ən vacib və qeyri-müəyyən məsələlərdən biri status əlavəsinin gələcəyidir. Müəllimlər bilirdilər ki, əməkhaqqı kontekstində maaşı azaldılanlar üçün funksional əlavənin yeni islahat fonunda müvəqqəti olaraq (iki il müddətinə) saxlanıldığı hissəsi gələn ildən, ola bilsin, tam ləğv edilsin. Bu əməyin ucuzlaşdırılmasıdır: aparıcı və mentor müəllim statusu yalnız simvolik status deyil – bu, pedaqoqun göstərdiyi əməyin, yuxusuz gecələrin, kvalifikasiyanın artırılmasının və çətin imtahanın nəticəsidir. Tam ədalətli olmaq üçün Nazirlik bu əlavənin ləğv edilməməsini təmin etməlidir. O, əməkhaqqının daimi strukturuna inteqrasiya olunmalıdır. Status müəllimin daimi nailiyyəti olmalıdır ki, bu da maliyyə cəhətdən qorunmalı və keçid mərhələsinin müddətlərindən asılı olmamalıdır.

# PEŞƏ TƏHSİLİ PROQRAMLARINA QEYDİYYAT BAŞLAYIB




Peşə təhsili proqramlarına qeydiyyat mayın 11-də başlayıb və mayın 29-na kimi davam edəcək.

Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyi tərəfindən yayımlanmış məlumata görə, qeydiyyat **"vet.ge"** veb-səhifəsində onlayn qaydada və ya Gürcüstan miqyasında fəaliyyət göstərən peşə təhsili proqramlarını həyata keçirən müəssisələrdə mümkündür.

2026-cı ildə təklif olunan peşə təhsili müəssisələri və proqramlarının tam siyahısını, eləcə də qeydiyyat üçün ətraflı təlimatı "vet.ge" portalından əldə edə bilərsiniz.

"2026-cı ildə bütün Gürcüstan miqyasında ictimai və özəl peşə müəssisələri peşə tələbələrini rəngarəng peşə təhsili proqramlarına qəbul edəcək. İnteqrasiya olunmuş proqramların sayı yenidən artmışdır ki, bu da əsas təhsilli şəxslərə peşə təhsili ilə yanaşı, həm də tam orta təhsil almaq imkanı verir.

Qeyd olunan proqramların tamamlanması nəticəsində peşə diplomu verilir ki, bu da tam orta təhsil haqqında attestata bərabər tutulur və arzu olunduğu halda, təhsilin ali pilləsində oxumağa davam etmək imkanı yaradır", – deyə Təhsil Nazirliyinin məlumatında bildirilir.

Qurumun məlumatına görə, qeydiyyat həmçinin dual yanaşma ilə həyata keçirilən proqramlar üzrə də davam edir. Dual yanaşma təhsil müəssisəsi ilə şirkət arasında məsuliyyətin bölüşdürülməsini nəzərdə tutur. Proqramla nəzərdə tutulan təlim nəticələrinin 50%-i və ya daha çoxu real iş mühitində, konkret şirkətdə əldə edilir.

*Səhifədəki məlumatlar "edu.aris.ge" saytından götürülüb.*

Gürcü dilindən tərcümə etdi

***Aynurə Əliyeva***

# XALÇA VİRUSU – BORÇALININ TOXUNMUŞ TARİXİ


Nino Apakidze | ifact.ge (Courtesy Image)

Minaya Ramazanovanın günü toyuqlara və iki qoyuna qulluq etməklə başlayır, bağ və həyət işləri ilə davam edir.

Biz onun qapısına xəbərdarlıq etmədən getdik və onu ev işlərindən ayırdıq. O isə bizdən üzr istəyərək evə keçdi və əynini dəyişdi. Göz qırpımında meyvə yığdı və şirin süfrə açdı. Həyəcanlı idi, görünürdü ki, onun əvvəlcədən planlaşdırılmış, sakit gününü pozmuşuq.

Minayanın 64 yaşı var, Kvemo Kartlinin kiçik, kasıb və sanki dünyadan qopmuş Kosalar kəndində tək yaşayır.

Axşamlar dəzgahın arxasına keçir və xalça toxumağa başlayır. Günlərin qısa, çöl işlərinin isə az olduğu qış fəslində toxumağa daha çox vaxt ayırır. Bir xalçanı təxminən 20 günə bitirir. İldə 6-7 xalça toxuyur.

Deyir ki, hər tamamlanmış xalça tənhalıq yükümü yüngülləşdirir və məni qürurla doldurur. *“Nəticəyə baxanda xoşuma gəlir, əl işimlə fəxr edirəm. İstəyirəm ki, məni xalça toxuyan və don tikən biri kimi tanısınlar”,* – deyir Minaya.

Onun adı artıq Borçalı xalçaçılıq ənənəsini yaşadan sonuncu ustaların siyahısına yazılıb. Borçalı tarixən etnik azərbaycanlıların məskunlaşdığı Marneuli regionunun qədim adıdır.

Kosalar və qonşu Qaraçöp kəndində toxunmuş unikal xalçalar bu gün dünyanın bir çox muzeyində qorunub saxlanılır. Vaxtilə bu kəndlərdə demək olar ki, hər evdə xalça dəzgahı var idi, indi isə köhnə ustalardan yalnız bir neçəsi qalıb.

Minaya anasından yadigar qalan, qaygı ilə saxlanılmış xalçaları bizə göstərir. Onun toxuduğu xalçalar da 150 il əvvəlki nümunələri demək olar ki, dəyişməz şəkildə təkrarlayır – qalın yun toxunuş, kəskin həndəsi kompozisiyalar və simvollar: səkkizbucaqlılar, xaçvari ulduzlar, romblar və yenilənmə ilə davamlılığın rəmzi olan həyat ağacı.

Borçalı toxucuları bu gün də yerli təbii boyalardan və xaricdən gətirilən yüksək keyfiyyətli yun saplardan istifadə edirlər. İdxal olunan yun, təbii boyalar və ənənəvi ustalıq Borçalı xalçalarını nəinki dəyərli, həm də bahalı edir.

Zemfira toxumağı 16 yaşında qayınanasından öyrənib. İndi 65 yaşı var, görmə qabiliyyəti zəifləyib, amma yenə də toxuyur. Dəzgahın arxasına axşamlar keçir, həm də musiqiyə qulaq asır. Əvvəllər özü də zümzümə


Nino Apakidze | ifact.ge (Courtesy Image)

edərdi. İndi toxumaq onun üçün həm də fikirlərdən və gündəlik qayğılardan uzaqlaşdığı bir növ sığınacaqdır.

Sap hazır olduqda, toxucular onu dəzgaha bağlayırlar. Dəzgah taxta bir çərçivədir. Qadınlar alçaq kətillərdə oturur və saatlarla işləyirlər. Bu, fiziki əməkdir: minlərlə kiçik düyün vurulmasını, hər sıranın dəmir daraqla (həvə ilə) döyülməsini və ornament xəttinin dəqiqliklə qorunub saxlanılmasını tələb edir.

*“Mənim üçün toxumaqda çətin heç nə yoxdur, bu mənim həyatımdır”,* – deyir Zemfira.

Kosalar kəndində cəmi 10-a yaxın toxucu qadın yaşayır. Gənclər artıq dəzgah arxasında aylar keçirmək istəmirlər. Kvemo Kartlinin azərbaycanlı qızlarının bu gün məhdud da olsa başqa imkanları da var.

Xalçalar baha olsa da, onların istehsal xərcləri də böyükdür. Toxuculuqdan gələn gəlir az deyil, lakin təkcə bununla yaşamaq mümkün deyil.

Qədimdən Borçalı xalçaları ailənin var-dövlət və ləyaqət rəmzi hesab olunurdu. Qadınlar onları tez-tez cehizlik üçün toxuyurdular və məhz onların təxəyyülü bu gün Borçalı xalçalarının unikallığını müəyyən edən vizual dili yaratmışdır.

Qafqazda xalça toxuma mədəniyyətinin ən qədim izlərinə Gürcüstanda rast gəlinir – Muquti mağarasında tapılmış xovlu xalça fraqmentləri təxminən 1400 il əvvələ aid edilir. Həmin eksponat hazırda Bolnisi muzeyində qorunur. Sonralar bu bölgədə yaşayan ermənilər və türkdilli müsəlmanlar bu gün Borçalı, Şulaver və Faxralı adları ilə tanınan fərqli xovlu xalçalar toxuyurdular.

Sənətşünas İrina Koşoridzenin sözlərinə görə, yeni mühitdə məskunlaşan müsəlmanlar daş məbədlər, freskalar və xristian ikonoqrafiyası ilə qarşılaşdılar. Tədricən bu simvollar Şərq ornamentləri ilə zəngin olan öz ənənələri ilə qaynayıb-qarışdı və Şərq həndəsi motivləri yerli xristian simvolları və memarlıq formaları ilə vəhdət təşkil etdi. Məhz bu xüsusiyyət Borçalı xalçalarını Bakı, Qarabağ və ya İran nümunələrindən fərqləndirir.

Zemfira öz əl işləri arasında ən çox ailəsi üçün toxuduğu güllü xalçanı sevir.

*“Xalçalarda çox sayda kiçik, sanki “cəlbedici” detallar var – heyvan, gül və kiçik rozet təsvirləri. Toxucunun bu xırda ornamentlərlə xalçanın haşiyəsini və ya kompozisiyanın digər hissələrini doldurmaq üçün tam aza-*


Courtesy Photo

*dlığı var. Bu, qadının fərdi özünüifadə formasıdır”,* – deyir “reWoven”in kreativ direktoru Kosima Stüart.

*“Mənim üçün Qafqaz xalçalarını anlamaq, elə Qafqazın özünü anlamağa çalışmaqdır”,* – deyə artıq iki onillikdir Gürcüstanda yaşayan britaniyalı jurnalist Vilyam Danbar bizimlə bölüşür. Xalçalara olan marağı da elə Gürcüstana gəldiyi vaxtlarda yaranıb.

*“İlk dəfə 20-ci əsrə aid Kaxeti süjetli xalçaları bəyəndim”,* – deyə o xatırlayır. *“Onlarda xüsusi bir gürcü ruhu var idi – yazılar, təsvirlər. Onlar mənə unikal gürcü artefaktları kimi göründü və mən onları toplamağa başladım. Sonra, tez-tez olduğu kimi, məndə də “xalça virusu” adlandırılan o hal yarandı”.*

2014-cü ildə Vilyam “reWoven” şirkətinin təsisçisi Rayan Smitlə tanış olur. Qeyri-kommersiya layihəsinin məqsədi Borçalı xalçaçılıq ənənəsini qoruyub saxlamaq olan Rayan onun üçün bir növ bələdçiyə çevrilir; onlar birlikdə Kvemo Kartli və Kaxetinin kəndlərini gəzdilər. Orada etnik azərbaycanlı qadınlar hələ də qədim üsulla, əllə qurulmuş dəzgahlarda yun saplarla məşhur Borçalı xalçalarını toxuyurdular.

Smit ailəsinin faciəsindən sonra Vilyam Danbar “reWoven” layihəsinin idarəçiliyini öz üzərinə götürdü.

Bu gün “reWoven” alıcılara ildə 30-50 xalça göndərir. Böyük ölçülü nümunələrin qiyməti 2000-3000 dollara qədər çatır. Gəlir kəndə qayıdır, yuna, boyalara və layihənin davam etdirilməsinə xərclənir.

İnsan toxuculuqla 34000 il əvvəl məşğul olmağa başlayıb – Gürcüstandakı Dzudzuana mağarasında tapılan və dünyanın ən qədim toxuculuq nümunəsi hesab edilən kətan lifi buna sübutdur.

Toxuculuq dünyanın hər bir guşəsində öz dilini yaradıb. Çində ipək imperiyanın gücünü və dünya ticarətini simvolizə edirdi. Perunun dağ kəndlərində inklər rənglər və ornamentlər vasitəsilə öz tarixlərini nəql edirdilər. Afrikada Kente parçası bu günə qədər insanların sosial kimliyinin simvoludur. Avropada yun və kətan toxuculuğu Florensiya, Lion və Flandriyanı iqtisadi və mədəni mərkəzə çevirdi.

Gürcüstanda isə Kvemo Kartli və Kaxeti xalçaları həmin bölgələrin çoxmillətli mühitini əks etdirirdi.


Ryan Carter | www.ryancarterimages.com (Courtesy Image)

(davamı səhifə 6-da)

*(əvvəli səhifə 5-də)*

Tuşetidə yun toxuculuğu iqtisadi təhlükəsizliyin əsas dayağı idi. Bu ənənə çobanlıq dövrü ilə sıx bağlı idi və insan əməyinin təbiətlə necə qaynayıb-qarışdığını aydın şəkildə göstərirdi. “Göy süfrə” (Lurci supra) isə bir sosial-mədəni ritual kimi gürcü süfrə mədəniyyətinin maddi rəmzinə çevrildi.

Bu gün sənaye tekstili dövründə, yun sapların al qırmızı və indiqo rənglərini fabrik xalçalarının darıxdırıcı tonları əvəz edib. Toxuculuq ənənələri sanki yox olur. Bununla bərabər, saplara hopmuş kollektiv yaddaş da silinir.

Qədim toxuculuq nümunələrini qoruyub saxlamaq təkcə etnoqrafik əhəmiyyət kəsb etmir. Bu, həm də zamanın ruhunu itirməmək üçün bir cəhddir. Köhnə bir xalça naxışına toxunduqda, biz yalnız materiala deyil, həm də əsrlər əvvəl insanların özünüifadə formasına çevirdiyi o səslərə və sükuta toxunuruq.

“reWoven”in ən iddialı məqsədi ənənəvi toxuculuğun bütün ekosistemini bərpa etməkdir. Komandanın arzusu – tamamilə “Gürcüstan istehsalı” olan ilk xalçanı, yəni yerli yun və yerli təbii boyalarla hazırlanmış xalçanı ərsəyə gətirməkdir. Bunun üçün vacibdir: çobanları yunu satmağa razı salmaq; təbii boyaları yerindəcə hazırlamaq; emalatxanalar və yunun yuyulub-əyrilməsi üçün infrastruktur yaratmaq. Bununla belə, ilk addım artıq atılıb – Tbilisidə xalçaların yuyulması və son tamamlanma işləri üçün məntəqə açılıb.

*“Təbii ki, əllə toxunmuş Gürcüstan xalçalarının dünyada çox böyük miqdarda satıldığı o dövrə bir daha heç vaxt qayıda bilməyəcəyik. Lakin bu gün də xalça toxumağı bacaran insanlar var”,* – deyir Danbar.

Bəs yenə də bu səylər niyə vacibdir? Bu, yerli icmalara və ümumilikdə mədəniyyətə nə verir?

*“Bizim rəngkarlıq əsərlərimiz, müxtəlif media formalarımız, fiqurativ təsvirlərimiz, portretlərimiz və şair var. Lakin toxunma ornamentləri və rəngləri ilə xalçalar, insanın yaratdığı və sahib olduğu ən mühüm əşyadır. Bu xalçalar konkret icmalar üçün mədəni və bədii özünüifadə formasıdır”,* – deyə Kosima Stüart bildirir.

Xalçalar yalnız sənət nümunələri deyil, onlar həm də sosial və iqtisadi tarixin açarıdır. Vilyam onların həm mədəni, həm iqtisadi, həm də coğrafi aspektlərini araşdırmaqda maraqlıdır: *“Niyə Tuşetidə bu qədər çox xalça var, Xevsuretidə isə yox? Cavab budur ki, Tuşetidə çoxlu qoyun saxlayırdılar. Bəs niyə çoxlu qoyunları var idi? Çünki Baxtrioni üsyanından sonra onlara qışda qoyunları saxlamaq üçün Vaşlovani ərazisində torpaq verilmişdi”.*

Tekstili öyrənmək tarixin özünü öyrənməkdir. *“Xalçaları necə, niyə və kim yaradıb? Onların Tiflis və Şeytanbazarın tacirləri ilə, Moskva və İstanbul ilə hansı əlaqələri olub? Sonra isə Nyu-Yorkda, Beşinci Avenyudakı Qızıl Dövrün saraylarını təsəvvür edin – orada insanlar Qafqaz xalçalarının üzərində gəzirdilər. Bu barədə düşünmək mənə həmin əşyaların gözəlliyi qədər həyəcan verir,”* – deyir Danbar.

Lakin xalçaların gündəlik istifadəsi sanki onların əhəmiyyətini bizə unutdurur. *“Xalçaların üzərində gəzdiyimiz üçün bir çoxları onları sadəcə köhnə bir döşəmə örtüyü hesab edir. Amma bu xalçaları nəsillər boyu tanınmayan qadınlar yaradıb, öz əlləri ilə toxuyublar. Onlar Qafqazda, bizim yaşadığımız yerlərdə, gəzdiyimiz kəndlərdə yaşayıblar,”* – deyə Vilyam xatırladır.

Xalça zamanın görünən metaforudur. Borçalı xalçaları saysız-hesabsız naməlum hekayəni qoruyub saxlayır; hər bir düyün qaranlıqda dəzgah arxasında əyləşib öz fikirlərini materiala çevirən o qadının səsidir. Hər yeni toxunmuş xalça isə bu ənənənin yenidən sağ qalacağına dair bir ümid işığı yandırır.

Mənbə: **“Azadlır Radiosu”**

Müəllif: **Nino Apakidze**

Gürcü dilindən tərcümə:

**Aynurə Əliyeva**

# DASTAN YAZAN KƏND: DARVAZ



Gözəl təbiət özü bir təsvirdir: Tanrının təsviri. Bəlkə də Tanrı da seçdiyi insanları elə təbii gözəlliklərdə dünyaya gətirir ki, təbiəti qorusun. Bu günlərdə darvazlıların yazdığı qəhrəmanlıq dastanı Tanrının əmanətinə etibarı sübut etdi.

Gəlin bu qəhrəman kəndin dünənindən bu gününə gələk. Mən sizi beş keçidlə bu dastana gətirəcəm.

BİRİNCİ KEÇİD: Babalarımız qədim Borçalını dağlıq və bağlıq hissələrə bölmüşdülər. Darvaz kəndi Bağ Borçalısında qərb kənarında Bolulusda – indiki Bolnisi şəhərindən 22 km məsafədə, şərqdən Şindi dağına, şimaldan Ağbaba dağı, qərbdən Dağ Borçalısının Başkeçid kəndlərinə, şimaldan Kürə doğru yol alan Nehrəm çayı ilə sərhədlənən Gədi çayının sol sahilində yerləşir. Darvazın mənzərəsi göz oxşayır. Yaşıl ormanların əhatəsində üzük qaşı kimi ürək açır. Havası, suyu, saflığı təbiətin bu kəndə töhvəsidir. Adı tarixlər birləşdirən bu kəndin çox uzaq tarixinə keçmirəm, amma Osmanlı İmperiyasında Paşa rütbəsi alan Mehralı bəyin sorağı bütün Borçalıya yayılıb. 1870-ci ildə Çar siyahıyaalmasında kənddə 438 nəfər, 1926-cı ilin Sovet siyahıyaalmasında isə 1114 nəfər, son illərin Gürcüstan statistikasına görə, kənddə 4000-ə qədər əhali yaşayır.

İKİNCİ KEÇİD: Bütün Borçalı kəndləri kimi, bu kəndlərdə “molla məktəbi” adlanan, əslində, ibtidai təhsil verən “özəl məktəblər” var idi. Çar dövründə yalnız Qızılhacılıda ilk dünyəvi məktəb vardı (1890). Darvazda dünyəvi məktəb isə Gürcüstan Demokratik Respublikasının dövründə – 1919-cu ildə fəaliyyətə başladı. Saz, söz adamları olduğu qədər, get-gedə təhsilə meyil də artmağa başladı və müharibədən sonrakı dövrlər sanki Darvazın intibah dövrü başladı.

Hərbiyə Paşasıyla başlayan kəndin onlarla müharibə iştirakçısı vardı, hətta Sovet İttifaqı qəhrəmanı da vardı, NKVD zabiti Bilal Aşırov da bu kənddən idi... Darvaz ziyalıları akademik Mədət Çobanov, professorlar Fərman Gülməmmədov, Murtuz Məmmədov, Valeh Hacılar və onlarla elmlər namizədi, Azərbaycan mətbuatında Musa Nəbioğlu və Muşfiq Borçalı da kifayət qədər tanınan yazıçı, publisistlərdir.

ÜÇÜNCÜ KEÇİD: İllərlə kəndin seçilən təhsilliləri əsasən Azərbaycanda və digər ölkələrdə məskunlaşsalar da, kəndinə, elinə bağlı övladları ata ocağının işığını yandırıb, yurda sahib çıxıblar. Darvazlılar keçid dövrünün çətinliklərinə sinə gərdilər, el qorudular, oba yaşatdılar. Artıq bütün Gürcüstanda olduğu kimi, Darvazda da infrastrukturlar yenilənib, kənd abadlaşıb, gənclər elə paytaxtda təhsilini davam etdirir, vətəndaş olaraq bütün hüquqlarından istifadə edirlər. Kənd camaatı hər kəs öz arşını ilə həyatını davam etdirir – fəhləsi fəhlə kimi, çobanı çoban kimi, ziyalısı ziyalı kimi... Beləcə, darvazlılar dünənindən gələn tarixin cığırı ilə heç bir təxribata getmədən öz yoluyla gedirdilər – müstəqil Gürcüstan vətəndaşları kimi.

DÖRDÜNCÜ KEÇİD: Darvaz dərəsi dağlar arasında bir vadidir. Burada 6 kənd birləşir. Əsrlərdir otlağı, aranı, dağı bir, fərq qoymadan bir elli, bir evli kimi dolanırlar. Vadililərin Tanrı töhfəsi olan təbiət gözəlliyi insanlarının çöhrəsinə nur, sağlığına gümrahlıq verib. Yurda sədaqətli övladlar halal zəhmətiylə həyət-bacada əkini ilə, tövlədə mal-qarası, hinində toyuq-cücəsi ilə örüşlərdən görüşlərə keçinib gedirdilər. Vadinin Günəşi parlaq, bulağı duru, səması açıq, sakinləri rahat idi və günlərin bir günü...

BEÇİNCİ KEÇİD: Bir gün kənd sakinləri ağır texnikanın gecə qaranlığında “kirimişcə” meşəyə girişini gördülər. Fikirlə gümandan gələn şübhələrlə ha çalışdılarsa suallarına cavab ala bilmədilər.

Dağlarda faydalı qazıntı sevdası olan işbazların kəndin içməli suyundan ekologiyasına verəcəyi zərəri dərk edən kənd əhalisi xoşməramlı narazılığa başladılar. Günlərlə davam edən narazılıq media tərəfindən sükunətlə qarşılanırdı. Şirkətlərin adı çəkilsə də, sakinlərin haqlı narazılığı sosial şəbəkədə ətraflı işıqlandırılsa da rəsmi cavab yox idi... Və...

ALTINCI GEDİŞ: Nə gözəl ki, elimizin layiqli, el sevər övladları var. El malını canından daha əziz bilən Naşir Orduxanov özü kimi qeyrətli gənclərlə birlikdə elinin harayına dəstək oldular. Bəli, el bir olsa zərbi kərən sındırar dedilər və dinc bir mitinq-aksiya keçirdilər – Darvazın xeyir-şər evinə 6 kənd camaatı ana demədən, ata demədən el harayına gəldilər. Mətbuatı çağırdılar, biz vətəndaşıq dedilər, dərdimiz bir, sirrimiz birkən səsimizi eşitməz olmayın dedilər. Haqq səsimizə haqq verin dedilər. Elə oradaca 600-ə qədər imza ilə 13 dövlət komitəsinə müraciət ünvanladılar. Tələblər, təkliflər mediada işıqlandı, dövlət və özəl kanallar, qəzetlər, sosial şəbəkələr 10 may günü Darvazdan danışdı, haqlı tələbindən danışdı, yekdil camaatından danışdı, yurd sevgisindən, qoruduğu təbiətdən danışdı.

Qızıl axtarışına gələn iki şirkət gizlicə gecə gəldiyi kimi, gizlicə gecə də getdi. Əvəzində bizə darvazlıları bir daha tanıtdı, sevdirdi, nümunə etdi. Darvaz vadisi darvazlılarla yenidən öz sağlığına qovuşdu, qanamış yarası qaysaqladı. Babaların ruhu şad, təbiətsevərlərin könlü rahat oldu.

Bəli, burada bizim XXI əsrin Darvaz dastanı başa çatdı.

**Esmira Ələkbərli**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# BELƏ-BELƏ İŞLƏR: QALAKTİON TABİDZE



*(əvvəli ötən sayda)*

1919-cu ildə Qalaktionun ikinci toplusu olan “Bədii çiçəklər” nəşr olundu. Buraya “Mən və gecə”, “Qəbirqazan”, “Mavi atlar”, “Meri”, “Mtatsminda gecəsi” və “Quriya dağları” şeirləri daxil idi. Cəmi səksən altı şeir. Qalaktionun şah əsərləri bir nəfəsə yazılmışlara bənzəyirdi. Sanki Tanrı şairə qafiyələri diktə edirdi və onun etməli olduğu tək şey şeiri kağıza köçürmək idi. Qalaktionun kitablarının redaktoru Nodar Cavaxadzeyə görə, Qalaktion bu kitabın nəşrindən dərhal sonra dünyasını dəyişsə idi, yenə də böyük şair olaraq qalardı, çünki bu dövrün əsərləri ilə o, gürcü poeziyasında yeni bir istiqamət müəyyən etmiş və şeirin yenilənməsi prosesini tamamlamışdı. “1926-cı il də daxil olmaqla Qalaktioninin yaradıcılığı gürcü poeziyasının ikinci intibah dövrü hesab edilə bilər. Bu dövrdə o, yalnız şah əsərlər yazıb, nadir hallarda zəif şeir yazıb”.

Qalaktion şeirləri evdə qaranlıqda yazırdı. Otağın qapısı örtülür, pəncərə qapaqları diqqətlə bağlanırdı. Nəhəng iş masası yalnız köhnə bir çilçırağa bərkidilmiş mum şamları ilə işıqlandırılırdı. Adi qələmlə kağıza yazılmış qeyri-adi qafiyələr ortaya çıxırdı. O həmişə yazmağa hazır idi. O hər yerdə və hər şeydə yazırdı: maşında, yolda, salfetlərdə, siqaret qutularında.

1921-ci ilin yanvarında gürcü şairlərinin bir hissəsi Qalaktioniyə kral titulu verib. Halbuki Tabidze başqalarının köməyi olmadan 1915-ci ildə poeziya tacını özü başına qoyub. “Mtatsminda Ayı” şeirində o, birbaşa kral olduğunu bəyan edir:

*Mən kral, nəğməkaram ki,*
*Mahnı ilə ölürəm.*
*Əsrlər boyu sizi müşayiət edəcək mənim arfam.*
*Heç vaxt Ay doğmamışdı*
*Bu qədər dinc.*

Qalaktionun kölgəsində olmaq bir çox şair üçün dözülməz idi. Buna görə də bəziləri Tabidzenin yaradıcılığına həsədlə baxırdılar. O, lağa qoyulur və tez-tez təhqir edilirdi də. “Bədii çiçəklər” sadə şeirlər toplusu, “Mavi atlar” isə əyalət gitara romansı adlandırıldı. Onun dahiliyini kiçiltmək üçün paxıllar hətta Qalaktionu (kuxarkaların (kuxarka – rusca, mətbəx qadını) şairi adlandırdılar.

Lənətlər və təhqirlər Tabidzenin depressiv təbiətini daha da şiddətləndirirdi. Lağa qoyulmaqdan yaxasını qurtarmaq üçün Qalaktion içməyə başladı. Onu praktiki olaraq, heç kim böyük ziyafətlərdə xatırlamır. O, əsasən yad adamlarla yeyib-içirdi. Seçdiyi ictimaiyyətdə daha çox sadə insanları və kasıb süfrəni üstün tuturdu. Ən çox vaxt isə tək içirdi. Belə bir vəziyyətdə o, özünü xarici dünyadan ayırır və özü ilə tək qalırdı. Yayılan stereotipin əksinə olaraq, Tabidze sərxoş olarkən nə gündəlik, nə də şeir yazırdı.

Ölkədəki vəziyyətlə əlaqədar olaraq şairin mənəvi vəziyyəti daha da çətinləşdi. Tezliklə paxılların təhqir və boğmasına siyasi problemlər də əlavə olundu. Doğrudur, Qalaktion heç vaxt hər hansı bir partiyanın üzvü olmayıb, lakin siyasətlə kifayət qədər sıx əlaqədə idi. 1920-ci ildə Sosial Demokratların mətbuat orqanı olan “Xalq qvardiyaçısı”nın redaktoru idi. İki il əvvəl isə o, Noe Jordaniyanın dəftərxanasında katib işləmişdi. Qalaktioninin kommunistlərlə ailəvi əlaqələri var idi. Həyat yoldaşı **Olqa Okucava** məşhur bolşevik, Gürcüstan Mərkəzi Komitəsinin birinci katibi Mixail Okucavanın bacısı idi. Onlar hətta inqilabdan əvvəl də evli idilər. Şair məşhur “Biçin ayının Günəşi” şeirini Olqaya həsr etmişdi. Qalaktion bu şeirlə 1917-ci ildə Olqanı Moskvaya yola saldı. Şair biçin ayının Günəşindən həyat yoldaşını qorumasını istəyirdi.

*Biçin ayının Günəşi, biçin ayının Günəşi,*
*Müqəddəs kasa qarşısında dua edərək diz çökürəm,*
*Yalvarıram,*
*Böyük sevgi ilə sevdiyimi,*
*Qanadlarının altına al onu, yalvarıram.*

İlk günlərdə heç kim Gürcüstan MK-nın rəhbərinin kürəkənini narahat etmirdi. Lakin Qalaktion 1924-cü il üsyanı haqqında anti-inqilabi bir şeir (“Şimşək çaxan günlərin xatirələri”) həsr etdikdə, o, hər halda həbs edildi. Qalaktion ilə birlikdə “Mnatobi” jurnalının 5-ci sayında dərc olunan poema da həbs edildi. MK çapa hazırlanan bütün sayını ələ keçirdi.

Poemadan bir parça:

*Qaliblər qəddar əlləri ilə*
*Əsirləri boğurlar,*
*Onları doğrayır, güllələyirlər,*
*Xalqın adından günləri məhv edirlər...*
*Və bütün həftə*
*Vağzaldan o yana*
*Dayandı qatar*
*Ölülər sıra ilə sərilib bir örtük olmadan.*

***

Şair Metexi həbsxanasında üç gün keçirdi. Tabidze həbsxanadan dəyişmiş şəkildə çıxdı. Tabidzenin müasirlərinin dediyi kimi, Qalaktion həbsxanadan sonra bir daha öz əsl səsi ilə danışmadı. Bu dəyişmə ilə bağlı yazıçı Rezi Tvaradze xatırlayırdı: “Həbsxanadan çıxdıqdan sonra o, fərqli bir səslə danışmağa başladı. Nazik, qeyri-təbii bir səslə danışırdı. Sanki hansısa rol oynayırdı. Qalaktionun əsl səsini heç eşitməmiş insanlarla tanış olmuşam, amma belə insanlar mində bir idi. Əsasən, o, hər kəslə qeyri-təbii bir səslə danışırdı. Səsinin incəliyi elə nəzərdə tutulmuşdu ki, o, hansısa bir rol oynamağa başlasın və bunun vasitəsilə əsl üzünü gizlədə bilsin”.

Həbsxanadan sonra şair fikirlərini və baxışlarını ictimailəşdirməkdən çəkinirdi. Bu dövrdə Qalaktion həddindən artıq çətinliklərlə üzləşirdi. O, hətta tez-tez ac qalırdı. Qızıl üzüklər və Qalaktionun şəxsi əşyaları lombardda tapılırdı. Şair qonorar ümidi ilə redaksiyalardan və nəşriyyatlardan borclar yığırdı. Daha sonra borcu şeirlərlə örtürdü. Evdən satıla bilən hər şey satılırdı. Qoca Tabidzenin ailəsinə köhnə şeylər toplayan, antikvar tez-tez qonaq olurdu.



Olqa Okucavanın məktubundan: “Küçədən bir qoca gətirdim. Ona butulkaları 14 rubl 28 qəpiyə satdım. Kartofu 2 rubla aldım, qalanını isə qayıdanda sənə verəcəyəm. Olqa”.

***

Ac və pulu olmayan şair tez-tez Yazıçılar Birliyinə müraciət edirdi. Qalaktion o qədər çətin vəziyyətdə idi ki, hətta paltarı belə yox idi və bu səbəbdən evdən çıxa bilmirdi.

Qalaktionun Yazıçılar Birliyinə məktubu:

“Mənim paltom yoxdur və evdən çıxa bilmirəm. Xahiş edirəm mənə birtəhər palto sifariş edin. Palto qapalı paylama mərkəzimizdədir, amma icazəsiz mənə vermirlər. Və mən belə bir vəziyyətdəyəm. Çox xahiş edirəm”.

***

Qalaktion halı pis olub xəstəxanaya gedəndə həkim ona dedi ki, yerimiz yoxdur. Qalaktion bir ay əvvəl orada xəstəxanaya yerləşdirilmişdi, ona görə də harada, hansı palata olduğunu dəqiq bilirdi və konkret bir palatanı göstərdi – Ora bağlıdır. Aldığı cavab bu oldu – Boşdur. Bəs, Mərkəzi Komitə katibinin qohumlarından biri xəstələnsə necə olacaq?.. Və ona dəhlizdə yatırmağı təklif etdi... Onu mərhəmətlə dəhlizdə yatırdılar...

*(davamı növbəti sayda)*

Topladı və gürcü dilindən tərcümə etdi:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MAY
2026-CI İL
№ 09 (249)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BƏLƏDİYYƏLƏR ARASINDA MƏKTƏB SAYINA GÖRƏ MARNEULİ BİRİNCİDİR



Milli Statistika Xidmətinin göstəricilərinə görə, 2025-2026-cı tədris ilinin başlanğıcında Gürcüstanda cəmi 2292 ictimai və özəl ümumtəhsil müəssisəsi fəaliyyət göstərib.

Məlumata əsasən, ən çox məktəb İmereti bölgəsindədir – 392.

***Digər bölgələrin göstəriciləri isə bu cürdür:***

- Şida Kartli (Eredvi, Tiğvi və Kurtinin göstəriciləri məlum deyil) – 170 məktəb;
- **Kvemo Kartli – 264 məktəb;**
- Samtsxe-Cavaxeti – 205 məktəb;
- Sameqrelo-Zemo Svaneti – 259 məktəb;
- Raça-Leçxumi və Kvemo-Svaneti – 69 məktəb;
- Mtsxeta-Mtianeti (Axalqorinin göstəriciləri məlum deyil) – 88 məktəb;
- Kaxeti – 191 məktəb;
- Quriya – 101 məktəb;
- Acara Muxtar Respublikası – 254 məktəb;
- Abxaziya Muxtar Respublikası – 15 məktəb.

***Özünüidarəetmə şəhərlərinə dair göstəricilər isə bu cürdür:***

- Tbilisi – 284 məktəb;
- Batumi – 45 məktəb;
- Kutaisi – 48 məktəb;
- Rustavi – 33 məktəb;
- Poti – 14 məktəb.

***Özünüidarəetmə şəhərlərini çıxmaqla bələdiyyələr arasında məktəb sayına görə Marneuli liderlik edir. Burada 75 məktəb fəaliyyət göstərir. Sonra isə 71 və 65 məktəblə Qori və Axalkalaki bələdiyyələri gəlir.***

*Mənbə: edu.aris.ge*

## GÜRCÜSTANDA I RÜBDƏ QƏZALARDAN 92 NƏFƏR HƏLAK OLUB



Cari ilin ilk üç ayında Gürcüstanda yol-nəqliyyat hadisələri nəticəsində **92 nəfər həlak olub, 989 nəfər isə yaralanıb.**

Daxili İşlər Nazirliyinin rəsmi statistikasına əsasən, Cinayət Məcəlləsinə uyğun olaraq 664 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə azalıb. Belə ki, 2025-ci ilin yanvar-mart aylarında 1360 hadisə nəticəsində 112 nəfər həlak olmuş, 1763 nəfər isə yaralanmışdı.

Ölümlə nəticələnən halların əksəriyyəti sürət həddinin aşılması, manevr qaydalarının pozulması və əks yola çıxma və ya ötmə qaydalarının pozulması ilə bağlıdır.

***Məlumat üçün bildirək ki, 2026-cı ilin yanvar-mart aylarında Gürcüstanda İnzibati Xətalar Məcəlləsinə əsasən 14174 yol-nəqliyyat hadisəsi baş verib.***

*Mənbə: bm.ge*

## GÜRCÜSTANDA MƏHBUSLARIN SAYI 2025-Cİ İLDƏ TARİXİ MAKSİMUMA ÇATIB



Milli Statistika İdarəsinin məlumatına görə, 2025-ci ildə Gürcüstanda cəmi 22767 məhkum olub ki, bu da tarixi maksimumdur.

Milli Statistika İdarəsinin 2001-ci ildən bəri apardığı araşdırmaya əsasən, 2025-ci il penitensiar sistemdə rekord sayda şəxs qeydə alınıb ki, bu da 2024-cü ilə nisbətən 25,5 % artım deməkdir.

***2025-ci ildə cinayət növlərinə görə say göstəriciləri belə olub:***

- Qəsdən adam öldürmə: 53;
- Ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə: 56;
- Sağlamlığa qəsdən ağır zərər vurma: 158;
- Zorlama: 45;
- Soyğunçuluq: 279;
- Quldurluq: 83;
- Oğurluq: 3208;
- Narkotik cinayətləri: 5322;
- Xuliqanlıq: 98;
- Nəqliyyatın hərəkət təhlükəsizliyi və ya istismarı qaydalarının pozulması: 733;
- Digər cinayətlər: 12732.

***İllərə görə Gürcüstanda məhbusların sayı aşağıdakı kimidir:***

- 2025-ci il – 22767 məhbus;
- 2024-cü il – 16961 məhbus;
- 2023-cü il – 18547 məhbus;
- 2022-ci il – 18850 məhbus;
- 2021-ci il – 15412 məhbus;
- 2020-ci il – 12 980 məhbus;
- 2019-cu il – 16748 məhbus;
- 2018-ci il – 15846 məhbus;
- 2017-ci il – 14517 məhbus;
- 2016-cı il – 15640 məhbus;
- 2015-ci il – 15139 məhbus;
- 2014-cü il – 16776 məhbus;
- 2013-cü il – 15166 məhbus;
- 2012-ci il – 10922 məhbus;
- 2011-ci il – 18153 məhbus;
- 2010-cu il – 19940 məhbus;
- 2009-cu il – 18354 məhbus;
- 2008-ci il – 20804 məhbus;
- 2007-ci il – 21170 məhbus;
- 2006-cı il – 16911 məhbus;
- 2005-ci il – 9168 məhbus;
- 2004-cü il – 9071 məhbus;
- 2003-cü il – 8110 məhbus;
- 2002-ci il – 8579 məhbus;
- 2001-ci il – 8 897 məhbus.

***Qeyd etmək lazımdır ki, son məlumatlara görə, hər 100000 nəfər əhaliyə düşən məhbus sayına görə Gürcüstan Avropa Şurasının 46 ölkəsi arasında ikinci yerdədir. Bütün ölkələr arasında siyahıya hər 100000 nəfərə 408 məhbusla Türkiyə liderlik edir, Gürcüstan isə 236,6 məhbusla ikinci yerdədir. Bu 2024-cü ilin məlumatlarıdır. 2025-ci ilin məlumatları isə iyun ayında dərc olunacaq.***

*Mənbə: bm.ge*

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.